# AMEA-nın yubileyinə həsr olunmuş konfrans

**AMEA-nın Naxçıvan Bölməsində Azərbaycan Milli Elmlər Akademiyasının yaradılmasının 80 illliyinə və Elm Gününə həsr olunmuş elmi konfrans keçirilib.**





Muxtar respublikada fəliyyət göstərən elmi qurumların əməkdaşlarının iştirak etdikləri "Azərbaycanın elm məbədi" adlı elmi konfransda giriş sözü ilə çıxış edən AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev milli akademiyanın yaranma və inkişaf tarixi barədə məlumat verib. Akademik qeyd edib ki, 1923-cü ildə özülü qoyulan, 1945-ci ildə müstəqil akademiya kimi formalaşan bu çoxsahəli elmi müəssisənin sovet zamanı önəmli yüksəlişi və müstəqillik dövründə tam milliləşməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər müstəqillik şəraitində digər zəruri qurumlar kimi, akademiyanın da normal fəaliyyətini təmin etdi.

Bölmə sədri söyləyib ki, 2001-ci ildə Azərbaycan Elmlər Akademiyasına "milli" statusu verilməsi, 2016-cı ildə "Elm haqqında Azərbaycan Respublikası Qanunu"nun qəbul olunması, 27 Mart Elm Gününün təsis edilməsi, elm sahəsində aparılan islahatlar ölkə elminin problemlərini aradan qaldıraraq onu yeni inkişaf yoluna çıxardı, elmi işçilərin fəliyyətini stimullaşdırdı.

Konfransın davamında Bölmənin Əlyazmalar Fondunun direktoru, dosent Fərman Xəlilov "Azərbaycan Elmlər Akademiyasının yaranmasında Tədqiq və Tətəbbö Cəmiyyətinin rolu", İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, professor Əbülfəz Quliyev "Azərbaycan Elmlər Akademiyası inkişaf yollarında: 1945–1969-cu illər", Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, professor Vəli Baxşəliyev "Heydər Əliyev və Azərbaycan Milli Elmlər Akademiyası", Təbii Ehtiyatlar İnstitutunun direktoru, professor Tofiq Əliyev "Azərbaycan Elmlər Akademiyasının yaranmasından sonra Naxçıvanda fundamental və tətbiqi elm sahələrinin inkişafı", Batabat Astrofizika Rəsədxanasının direktor əvəzi Ruslan Məmmədov "Azərbaycan Elmlər Akademiyasının yaranması və astronomiya elminin inkişafı məsələləri", Bioresurslar İnstitutunun direktoru, dosent İsmayıl Məmmədov "Azərbaycan Milli Elmlər Akademiyası 2000–2025-ci illərdə" mövzularında məruzə ediblər.

***XQ***